# Azərbaycanın məhkəmə sistemi üçün kommunikasiya strategiyası

Brigitte Koppenhöfer
Avqust 2020

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

*Kommunikasiya strategiyası Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II (PGG II) çərçivəsində həyata keçirilən Avropa Şurasının və Avropa İttifaqının "Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" Birgə Layihəsi çərçivəsində hazırlanıb. Bu sənəddə ifadə edilən baxışlar və fikirlər müəllifə aiddir və Avropa Şurası ilə Avropa İttifaqının rəsmi siyasətini əks etdirməyə bilər.*

# İlkin qeydlər

**Hər şeydən əvvəl Vəfa Rövşənovaya və Leyla Mədətliyə təşəkkür etmək istərdim, bu sənədin hazırlanması ilk növbədə onların dəstəyi, ideyaları və Azərbaycanda ədliyyə sistemi barədə çoxsaylı müsahibə və digər məlumatlar mübadiləsi sayəsində mümkün olmuşdur.**

**Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) "Məhkəmələr və prokurorluq orqanları üçün media və ictimaiyyətlə əlaqəyə dair təlimat"ı dərc etmişdir** (https://rm.coe.int/cepej-2018-15-en-communication-manual-with-media/16809025fe). **Digər fundamental rəhbər vəsait 23-25 noyabr 2005-ci ildə Strasburqda keçirilmiş CCJE-nin 6-cı iclasında qəbul edilmiş "Avropa Hakimlərinin Məşvərət Şurasının (CCJE) Avropa Şurası Nazirlər Komitəsinin diqqətinə təqdim etdiyi "Ədalət mühakiməsi və cəmiyyət haqqında" 7 (2005) saylı rəy"dir** (https://www.coe.int/en/web/ccje/opinion-n-7-on-justice-and-society).

**CEPEJ həmçinin 5-6 dekabr 2019-cu ildə keçirilmiş 36-cı plenar iclasında qəbul edilmiş "Hakimlərin izolyasiyasının aradan qaldırılması" adlı sənəd dərc edib, həmin sənəd hakimlərin bacarıq və səriştəsinin artırılmasına, biliklərin paylaşılmasının və əməkdaşlığın gücləndirilməsinə və hakimlərin izolyasiyası ənənəsini dəf etməyə yönələn rəhbər prinsiplərdən ibarətdir** (https://rm.coe.int/cepej-2019-15-en-knowledge-sharing/16809939e4)

Əlavə məlumat üçün bax: https://www.coe.int/en/web/cepej/gt-qual-tools.

**Bu təlimatlar daxili və xarici (kənar) ünsiyyət üçün gələcək kommunikasiya strategiyasının əsasını təşkil edir.**

**Təhlilə hazırlıq üçün mən sorğu anketi hazırladım, Leyla Mədətli isə müsahibələr və onlayn araşdırma üçün ondan baza kimi istifadə etdi.**

# Mündəricat

Giriş .......... 5

1. Məhkəmə sisteminə etimadın gücləndirilməsi .......... 7

2. İstifadə edilmiş metod .......... 9

3. Strategiyada nəzərdə tutulan fəaliyyətlər .......... 12

3.1 Məhkəmə orqanları ilə media arasında münasibətlərin yaxşılaşdırılması .......... 12

3.1.1. İzahedici qeydlər .......... 19

3.2. Məhkəmə orqanları ilə ictimaiyyət arasında münasibətlərin yaxşılaşdırılması .......... 25

3.2.1. İzahedici qeydlər .......... 27

# Giriş

Ədalət mühakiməsi həyata keçirilməli və bunu əyani görmək mümkün olmalıdır. “Görmək mümkün olmalıdır” o deməkdir ki, medianın məhkəmə proseslərini işıqlandırmasına icazə verilməli və ictimaiyyətin məhkəmə proseslərində iştirak etməsinə və onları anlamasına imkan yaradılmalıdır.

Son illər bütün ölkələrdə ədalət mühakiməsinə ictimai maraq artmışdır. Məhkəmə məlumatlarının açıqlanmasında media dominant rol oynayır. Jurnalistlər geniş ictimaiyyətin gözləri və qulaqlarıdır; ictimaiyyətin məhkəmə sistemini necə qəbul etməsi və ona etimad göstərməsi xeyli dərəcədə medianın çatdırdığı məlumatdan asılıdır. Amma məhkəmə sistemi məlumatların sadəcə media vasitəsilə çatdırılmasına arxayın olmamalıdır. Məhkəmə orqanları həm də ictimaiyyəti birbaşa məlumatlandırmalıdırlar, çünki biz bilirik ki, media tərəfindən işıqlandırılma heç də həmişə ədalətli və balanslı olmur.

Hakimlərin və məhkəmə nümayəndələrinin missiyası məhkəmənin ismarıclarını vətəndaşlara çatdırmaq və hakimiyyətin üçüncü qanadı olan məhkəmə hakimiyyətinin onların gündəlik həyatında son dərəcə mühüm rol oynadığını vətəndaşlara göstərməkdir. Demokratik cəmiyyətdə vətəndaş məhkəmələrin işi barədə məlumatlandırılmaq hüququna malikdir. Yaxşı kommunikasiya vasitəsilə məhkəmələr maarifləndirici rol oynaya bilər və həmçinin media ilə düzgün və operativ kommunikasiya qurmaqla çox zaman mediada verilən sensasiyalı materiallarda təsadüf edilən insan hüquqlarının pozuntularının qarşısını almağa yönələn addımlar ata bilərlər.

Mediaya münasibətdə açıqlığı inkişaf etdirmək zəruri olsa da, həmişə yadda saxlamaq lazımdır ki, məhkəmə hakimiyyətinin vəzifəsi şəxsi məlumatların məxfiliyi hüququnu, təqsirsizlik prezumpsiyasını, ədalətli məhkəmə araşdırması hüququnu və qurbanların hüquqlarını qorumaqdan ibarətdir. Buna görə də ictimaiyyətin qanuni məlumatlandırılma maraqları və məhkəmələrin işini tənqid etmək hüququ ilə məhkəmə prosesində iştirak edən digər şəxslərin hüquqları arasında balansı gözləmək zəruridir. Bu heç də həmişə sadə vəzifə deyil və məhkəmələr çox zaman ənənəvi köhnə

yanaşma olan “təhlükəsiz yol susmaqdır” və ya “hakimin yerinə onun qərarı danışır” mövqeyində dururlar.

Yaxşı kommunikasiya strategiyası üçün əsas qayda ondan ibarət olmalıdır ki, məhkəmələrin ictimaiyyətlə kommunikasiyası həmişə proaktiv olmalıdır. Məhkəmələr öz işlərindən danışmasalar bunu başqası edəcək. “Birinci mənbə” həmişə ismarıcı birbaşa çatdırır, ikincinin çatdırdıqları isə həmişə reaktiv xarakter daşıyır. Ya məhkəmə orqanları mətbuatla işləməlidir, ya da mətbuat öz işini məhkəmə orqanları olmadan yerinə yetirəcək.

İctimaiyyətin məhkəmə sisteminə etimadını artırmaq üçün iki əsas hədəfi müəyyənləşdirmək olar: birincisi, məhkəmə sistemi ilə media arasında və ikincisi, məhkəmə sistemi ilə ictimaiyyət arasında yaxşı əlaqələrin qurulması zəruridir. Əlbəttə media da ictimaiyyətin bir hissəsidir, amma geniş ictimaiyyətlə birbaşa əlaqə əlavə ünsiyyət imkanları açır.

Hər  iki hədəfə çatmaq üçün uzunmüddətli strategiya zəruridir və həmin strategiyada uzunmüddətli məqsədləri təyin etmək və fəaliyyətləri müəyyənləşdirmək önəmlidir.

Strategiyada məhkəmə hakimiyyətinin nələri edə biləcəyi önə çəkilir və daxili və xarici (kənar) kommunikasiyaya praktiki dəstək verilir.

Aydın məsələdir ki, strategiyanın həyata keçirilməsinə görə kimin məsuliyyət daşıdığını müəyyənləşdirmək önəmlidir. İstəklilik və irəliləyişlərin tempi əsas ümumi dəyərlərə sadiqliyin dərəcəsindən, habelə razılaşdırılmış prioritet məsələləri həyata keçirmək bacarığından asılı olacaqdır. Buna görə də strategiyanın icra planının işlənib hazırlanması önəmlidir.

Davamlı qiymətləndirmələr məqsəd və hədəflərə nail olunması istiqamətində irəliləyişlərin əldə edilməsini təmin etməlidir. İşlərin gedişatına və əlavə və ya daha qətiyyətli səylərin tələb olunduğu sahələrə dair dövri hesabatlar tərtib edilməlidir.

# 1. Məhkəmə sisteminə etimadın gücləndirilməsi

Məhkəmə sisteminin əsas dəyərləri ictimaiyyətin qavrayışına uyğun olmalıdır. Məhkəmə orqanları **qərəzsizliyini, müstəqilliyini, dürüstlüyünü** və **peşəkarlığını** açıq şəkildə göstərməyə bacararsa, ictimaiyyətin məhkəmə sisteminə etimadı artacaq[1].

İctimaiyyətin məhkəmə sisteminə etimadını artırmaq üçün iki hədəf müəyyən edilmişdir: məhkəmə orqanları ilə media arasında münasibətlərin yaxşılaşdırılması və məhkəmə orqanları ilə ictimaiyyət arasında münasibətlərin yaxşılaşdırılması. Bunu demək artıqdır ki, daxili kommunikasiya hər iki məqsədə xidmət edir və onlara da eyni qaydalar şamil olunur.

## I hədəf: Məhkəmə orqanları ilə media arasında münasibətlərin yaxşılaşdırılması

İfadə azadlığı hər bir demokratik sistemin məhəl daşıdır. Həm yayım mediasına, həm də mətbuata münasibətdə məhkəmə orqanları medianın ictimaiyyəti məlumatlandırmaqda oynadığı mühüm rolu yerinə yetirə bilməsi üçün zəruri olan şəraiti yaratmalıdırlar.

Məhkəmə sisteminə etimadın əsasən məhkəmə proseslərinin mətbuatda necə işıqlandırılmasından asılı olduğunu nəzərə alsaq, şübhəsiz ki, məhkəmə orqanları ilə mətbuat arasında kommunikasiya kanallarının şəffaf və açıq olması vacibdir. Məhkəmə orqanları jurnalistlərlə paylaşılmasına icazə verilən məlumatları onlara vaxtında təqdim etməlidirlər.

Başlanğıc nöqtəsi kimi, bu iki peşənin sahibləri arasında qarşılıqlı etimad olmalıdır: hakimlər jurnalistlərin məsələləri necə işıqlandırmalı olduğunu diqtə etməklə onlara təsir göstərməyə çalışmamalı, jurnalistlər isə hakimlərin qərarları qəbul və tərtib etmək

[1] Əlbəttə, insanların etimadını qazanmaq üçün digər ilkin şərtlər də vardır, məsələn, ədalət mühakiməsinin keyfiyyətli şəkildə həyata keçirilməsi.

vəzifəsinə müdaxilə etməməlidirlər. Məhkəmə orqanları mətbuat azadlığına hörmət etməli, media isə qanun çərçivəsində işləməlidir.

## II hədəf: Məhkəmə orqanları ilə ictimaiyyət arasında münasibətlərin yaxşılaşdırılması

İctimaiyyəti media vasitəsilə məlumatlandırmaqdan əlavə, məhkəmə orqanları ictimaiyyətin özü ilə təmasların qurulmasına da çox mühüm məsələ kimi baxmalıdırlar. Jurnalistlərin öz maraqları olduğuna və məlumatları öz nöqteyi-nəzərlərindən çatdırdıqlarına görə, jurnalistlərin "interpretasiyası" olmadan ictimaiyyətlə birbaşa kommunikasiyada olmaq vacibdir.

Məhkəmə sisteminin qarşısında duran məhkəmə orqanlarının işinin əyaniliyini və şəffaflığını artırmaq vəzifəsi müxtəlif vasitə və kanalların köməyi ilə məlumatların ictimaiyyətə aktiv surətdə təqdim edilməsini tələb edir.

İnternetdə medianın inkişaf etməsi və sosial şəbəkələrin inkişafı davamlı informasiya axınlarını yaradır ki, bu axınların da içərisində ictimaiyyətə və mediaya yol göstərilməlidir. İnsanlar özləri informasiya axtarmırlar, informasiyanın onlara təqdim edilməsini gözləyirlər. Beləliklə, ictimaiyyət anlayışı təkamülə uğrayıb: ictimaiyyətin məhkəmə zallarına çıxışının təmin edilməsi daha məhkəmə qərarının "açıq" şəkildə qəbul edildiyini hesab etmək üçün yetərli deyil. Açıqlıq əlçatanlığı nəzərdə tutur, o isə öz növbəsində sadə, anlaşılan və dəqiq məlumatların insanların mümkün qədər geniş dairəsinə çatdırılmasını tələb edir.

# 2. İstifadə edilmiş metod

Bu strategiya üçün baza qismində SWOT təhlili hazırlanmışdır, bu təhlilin hədəfi məhkəmə sistemi və mediadır. SWOT təhlili hər hansı qurumun/təşkilatın güclü cəhətlərinin (**S**trengths), zəif cəhətlərinin (**W**eaknesses), mövcud imkanların (**O**pportunities) və təhlükələrin (**T**hreats) sadə, amma faydalı analizi üçün metoddur.

SWOT təhlili metodu təhlil obyektinin olduğu mühitin təhlilindən əldə edilən informasiyaları toplamaqdan və həmin informasiyaları daxili və xarici (kənar) mühit məsələlərinə bölməkdən ibarətdir. SWOT təhlili qarşıya qoyulan məqsədlərə nail olmağa nələrin kömək edə biləcəyini və arzu edilən nəticələrə nail olmaq üçün hansı maneələrin dəf edilməli və ya minimuma endirilməli olduğunu müəyyənləşdirir.

Məhkəmə orqanları ilə media/ictimaiyyət arasında münasibətlərin zəif və güclü cəhətləri, bu münasibətlər üçün imkanlar və təhlükələr barədə rəylərini bildirmələri üçün maraqlı tərəflərin nümayəndələrinə sorğu anketi vasitəsilə suallar verilmiş və bir neçə müsahibə aparılmışdır. Həmçinin müvafiq qurumların saytlarında qiymətləndirmə aparılmış və yazılı sorğular cavablandırılmışdır.

Maraq dairəsində olan qruplar bunlar idi:

- Ədliyyə Nazirliyi
- Konstitusiya Məhkəməsi
- Ali Məhkəmə
- Birinci instansiya məhkəməsi
- Baş Prokurorluq
- Müstəqil ekspert
- Ədliyyə Akademiyası

Bu maraqlı tərəflərin məlumatları təhlil edilmiş və strukturlaşdırılmışdır.

Maraqlı tərəflərin zəif cəhətlər, güclü cəhətlər, imkanlar və təhlükələr kimi daha çox göstərdiyi məsələlər aşağıdakı cədvəldə qısaca ümumiləşdirilib:

| **Güclü cəhətlər** | **Zəif cəhətlər** |
| --- | --- |
| ➢ Hakimlərin düşüncə tərzində dəyişiklik başlanmışdır<br>➢ Medianın düşüncə tərzində dəyişiklik başlanmışdır<br>➢ Məhkəmə orqanları ilə media arasında əlaqələrin gücləndirilməsinin zəruriliyi barədə məlumatlılıq yüksək səviyyədədir<br>➢ Məlumat vermə və alma haqqında hüquqi baza yetərincə məlumdur<br>➢ Kommunikasiya strategiyasına böyük maraq var<br>➢ Media ilə kommunikasiyanın gücləndirilməsi istiqamətində ilk təşəbbüslər var<br>➢ Məhkəmələrin və hakimlərin etik davranış kodeksləri var<br>➢ Vahid elektron məhkəmə sistemi artıq qurulub<br>➢ İnternet saytları artlq işləyir və yenilənir | ➢ Bütün məhkəmə orqanlarında sözçülük institutu yoxdur<br>➢ Məhkəmə/prokurorluq orqanlarında daxili kommunikasiya strukturu yetərli deyil<br>➢ Kənar (xarici) kommunikasiya vasitələri yetərli deyil<br>➢ Xəbərlər (xüsusən sosial mediada) heç də həmişə etik davranış kodeksləri çərçivəsində olmur<br>➢ Bir-birinin peşəsinə qarşılıqlı hörmət çatışmır<br>➢ Qurumlar arasında kommunikasiya yoxdur və ya zəifdir<br>➢ İctimaiyyətdə sözçülər barədə məlumat yoxdur<br>➢ Media ilə iş üzrə yetərli təlimlər hələ də keçirilməyib<br>➢ İnternet saytlarında ümumilikdə informasiya sorğuları üçün alətlər təklif edilmir[2]<br>➢ Jurnalistlərdə yetərli hüquqi biliklər yoxdur |
| **İmkanlar** | **Təhlükələr** |
| ➢ İctimaiyyətin məhkəmə sisteminə/məhkəmə işlərinə marağı böyükdür<br>➢ Gənc hakimlərin/prokurorların və jurnalistlərin təhsili düşüncə tərzinin dəyişdirilməsi üçün alət kimi istifadə edilə bilər<br>➢ Təhsil və təlim tədbirlərində hakimlərin/prokurorların və jurnalistlərin qarşılıqlı iştirakı həyata keçirilə bilər<br>➢ Dəyişiklik istəyindən istifadə etmək olar<br>➢ Sosial şəbəkələr ünsiyyət vasitəsi kimi qəbul edilir<br>➢ Bəzi qurumların artıq sözçüləri və (və ya) mətbuat katibləri var | ➢ Məhkəmə orqanları ilə medianın bir-birinə qarşı qərəzliliyi dərin kök salıb<br>➢ Sözçülər və mətbuat katibləri üçün hələ də yetərli təlim imkanları yoxdur<br>➢ Bütün media təmsilçiləri ilə kommunikasiyanın yaxşılaşdırılmasının zəruriliyi məhkəmə orqanlarında geniş şəkildə dərk edilmir<br>➢ Məhkəmə iclaslarında kimlərin iştirakına icazə verildiyinə dair aydın praktika mövcud deyil<br>➢ İnformasiya siyasətinə görə məsuliyyət dəqiq müəyyən edilməyib<br>➢ İctimaiyyət məhkəmə sisteminə yetərincə etimad etmir |

[2] İnformasiya sorğusu əsasən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

Bu sənədin əsas məqsədi daxili və xarici (kənar) kommunikasiya və böhran durumlarında kommunikasiya üzərində davamlı iş aparmaq və bu kommunikasiyanı mütəmadı olaraq yaxşılaşdırmaq üçün baza yaratmaqdır. Həmçinin bu strategiyanın məqsədi məhkəmə və prokurorluq orqanlarının işi barədə məlumatların şəffaflığının və keyfiyyətinin davamlı surətdə artırılmasından ibarətdir.

Aşağıdakı fəaliyyət planında məhkəmə orqanları və media arasında və həmçinin məhkəmə orqanları və ictimaiyyət arasında münasibətlərin güclü cəhət və imkanlarından istifadə edilir. Bundan əlavə, bu plan zəif cəhətlər və təhlükələrlə mübarizəyə yönəlib. Bütün fəaliyyətlər **qərəzsizlik, müstəqillik, dürüstlük** və **peşəkarlıq** kimi əsas dəyərlərə öz töhfəsini verir.

# 3. Strategiyada nəzərdə tutulan fəaliyyət

Əsas məqsəd ictimaiyyətin məhkəmə sisteminə etimadını artırmaqdır. Bu məqsədə nail olmaq üçün iki hədəf müəyyən edilmişdir:

1. Məhkəmə orqanları ilə media arasında münasibətlərin yaxşılaşdırılması;
2. Məhkəmə orqanları ilə ictimaiyyət arasında münasibətlərin yaxşılaşdırılması.

Bu strateji hədəflərə nail olmaq üçün iki alt hədəf (vəzifə) müəyyənləşdirilib. Hər bir vəzifənin həyata keçirilməsinə (alt hədəfə) nail olmaq üçün fərqli fəaliyyətlər nəzərdə tutulub.

## 3.1. Məhkəmə orqanları ilə media arasında münasibətlərin yaxşılaşdırılması

| Hədəflər | Fəaliyyətlər | Kim tərəfindən | Dövrilik |
|---|---|---|---|
| **Məhkəmə orqanları ilə media arasında qarşılıqlı anlayış**[3] | Mətbuatla bağlı rəhbər prinsiplər təqdim etmək: jurnalistlər məhkəmə sistemindən nə gözləyə bilər və əksinə | Ekspertlər, hakimlər, prokurorlar, jurnalistlər | Hər 3 aydan bir bu məsələyə yenidən baxmaq |
| | Mətbuatla bağlı rəhbər prinsiplərə əməl olunmaması barədə medianın və məhkəmə orqanlarının şikayətlərinə baxılması prosedurunu yaratmaq | Məhkəmə sistemi, jurnalistlər | Mətbuatla bağlı rəhbər prinsiplərin icrası ilə paralel surətdə |
| | Mətbuatla bağlı rəhbər prinsiplərə əməl olunmasından “istehlakçı məmnunluğunu” araşdırmaq | Ədliyyə Nazirliyi, məhkəmə hakimiyyətinin nümayəndələri və jurnalistlər | 2 ildən sonra |

[3] Bunu dərk etmək yaxşı olar ki, ümumiyyətlə bəzi ölkələrdə jurnalistlər barəsində ibtidai istintaq aparılması qarşılıqlı anlayış və etimada maneədir.

| | | |
|---|---|---|
| Gündəlik iş şəraiti kimi məsələləri müzakirə etmək üçün məhkəmədə qısa, qeyri-formal görüşlər keçirmək və təcrübə mübadiləsi aparmaq | Sözçülər, mətbuat katibləri və məhkəmə mövzusunu işıqlandıran jurnalistlər | Hər ay: hər biri maksimum 30 dəqiqə olmaqla |
| Jurnalistlərlə onların işi barəsində söhbət etmək üçün media orqanına (məsələn, qəzet/jurnal redaksiyasına, televiziyaya) işgüzar səfərlər etmək | Məhkəmə və prokurorluq orqanlarının sözçüləri və məhkəmə mövzusunu işıqlandıran jurnalistlər | İldə 2 dəfə |
| “Gəlin ... barəsində danışaq” adı altında hüquqi mövzularda görüşlər keçirmək | Hakimlər, prokurorlar və jurnalistlər, məhkəmə müxbirləri | İldə 1 dəfə |
| Məhkəmə fəaliyyətinin gündəliyi və bütün xəbərlərin yer aldığı yenilənən internet saytı işlətmək<br><br>İctimaiyyətdə maraq doğuran məhkəmə sisteminin fəaliyyətinə aid mövzulara dair məlumatların yer aldığı yenilənən internet saytı işlətmək | Mətbuat xidmətləri | Davamlı surətdə |
| Mütəmadi press-relizlər vermək, məsələn, orada məhkəmə qərarlarının qısa xülasəsini vermək, qarşıdakı ildə siyasət prioritetlərini təqdim etmək<br><br>İctimaiyyətdə maraq doğuran məhkəmə qərarlarının qısa xülasəsinin | Mətbuat xidmətləri | Mümkün qədər çox |

| | | |
|---|---|---|
| yer aldığı mütəmadi press-relizlər vermək | | |
| İnternet saytında mühüm məhkəmə işlərinə və mövzulara dair suallar və cavablar dərc etmək<br><br>İnternet saytında jurnalistlərin öz işlərini necə qurmalı olduqlarına dair məlumatlar yerləşdirmək (kameralardan istifadə, məhkəmə zalında iclasın keçirilməsi qaydası, press-relizin nə zaman, necə və kimlər üçün hazırlanması)<br><br>İnternet saytlarını milli qanunvericiliyə, o cümlədən “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanununa uyğun hala gətirmək | Mətbuat xidmətləri | Mümkün qədər tezliklə |
| Məhkəmənin iş planını elektron poçt vasitəsilə bütün jurnalistlərə göndərmək | Mətbuat xidmətləri | Həftədə bir dəfə |
| İnternet saytında hüquqi terminlərə aydınlıq gətirən sözlük (izahlı lüğət) yerləşdirmək | Ədliyyə Nazirliyi | Həftədə bir dəfə yeniləmək |
| Böyük maraq doğuran işlər üzrə qərarlar ictimaiyyətə elan olunduqdan dərhal sonra onları dərc etmək<br><br>İctimaiyyətdə maraq doğuran qərarlara dair press-relizlər vermək | Mətbuat xidmətləri | Davamlı surətdə<br><br>Mümkün qədər tezliklə |

| | | | |
|---|---|---|---|
| | Hakim və prokurorlar üçün daxili və xarici (kənar) kommunikasiya üzrə tədris proqramı keçmək | Ədliyyə Akademiyası,<br><br>Baş Prokurorluğun Elm-Tədris Mərkəzi | Mümkün qədər tezliklə<br><br>Dövri qaydada |
| | Universitetlərin jurnalistika fakültəsi ilə əməkdaşlıq imkanlarını araşdırmaq | Ədliyyə Nazirliyi | 5 il ərzində<br><br>Mütəmadi surətdə |
| | İri məhkəmə zallarında və məhkəmə iclası otaqlarında mətbuat üçün rahat yer ayırmaq | Bütün məhkəmələr<br><br>Mətbuat katibliyinin yaradıldığı bütün məhkəmə binalarında | Mümkün qədər tezliklə |
| **Media ilə xarici (kənar) kommunikasi-yanın vacibliyi barədə məhkəmə orqanlarının məlumatlılığını artırmaq** | Məlumatlandırma kampaniyası vasitəsilə məhkəmə sistemi daxilində məlumatlılığı artırmaq | Mətbuat xidməti məhkəmələrin rəhbərliyi və sözçülərlə əməkdaşlıq şəraitində | Birinci ildə<br><br>Mütəmadi surətdə |
| | Müvafiq informasiya strukturu yaratmaq | Hakim və prokurorlardan tutmuş mətbuat sözçülərinə qədər | Davamlı surətdə<br><br>Mütəmadi surətdə |
| | Bütün məhkəmə işçiləri üçün çalışdıqları məhkəmədəki işlər üzrə media materiallarından qısa çıxarışlar hazırlayıb münasib yerdə, məsələn, məhkəmələrin daxili şəbəkəsində (intranetdə) yerləşdirmək | Məhkəmə və prokurorluq orqanlarının mətbuat xidmətləri | Hər gün<br><br>Mütəmadi surətdə |

| | | | |
|---|---|---|---|
| | Mətbuat katiblərinin məhkəmə sistemindəki xəbərləri izləyə bilmələri üçün mətbuat xidmətini zəruri texnoloji infrastrukturla təchiz etmək | | |
| | Media materiallarından çıxarışların hər gün nəzərdən keçirilməsi milli məhkəmə sistemi məsələlərindəki dəyişikliklər barədə hakim və prokurorların məlumat əldə etməsinə imkan verir | Ədliyyə Nazirliyi<br><br>Baş Prokurorluq | Hər gün<br><br>Zərurət olduqda |
| **Məhkəmə və prokurorluq orqanlarında mətbuatla əlaqələri peşəkar səviyyəyə qaldırmaq** | Hər bir müvafiq məhkəmədə sözçü sistemini institusionallaşdırmaq | Ədliyyə Nazirliyi məhkəmələrlə əməkdaşlıq şəraitində | Mümkün qədər tezliklə |
| | Hər bir müvafiq məhkəmə binasında və prokurorluq orqanında yaxşı təchiz olunmuş mətbuat xidmətləri yaratmaq | Ədliyyə Nazirliyi<br><br>Baş Prokurorluq | Ədliyyə Nazirliyinin və Baş Prokurorluğun strategiya planına uyğun olaraq 5 il ərzində |
| | Uyğun namizədləri sözçü və mətbuat katibi vəzifələrinə qəbul etmək<br><br>Motivasiya: Məhkəmənin sözçüsü seçilən hakimin iş yükünü azaltmaq | Ədliyyə Nazirliyi və Baş Prokurorluq | Mümkün qədər tezliklə |

| | | |
|---|---|---|
| Sözçülər üçün təlim proqramı keçmək | Ədliyyə Akademiyası, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və universitetlər | İldə bir dəfə |
| Mətbuatla əlaqələr üçün rəhbər vəsait hazırlamaq | Bütün mətbuat katibləri, mətbuat xidməti əməkdaşları | Mümkün qədər tezliklə<br><br>Zərurət olduqda |
| Milli səviyyədə təcrübə və fikir mübadiləsi aparmaq (məsələn, intranetdə platforma yaratmaqla və konfranslar təşkil etməklə)<br><br>Mətbuat xidmətlərinin informasiya/təcrübə mübadiləsi üçün ənənəvi sistem vasitəsilə ünsiyyətdə olması | Sözçülər və mətbuat katibləri | Davamlı surətdə |
| Media üçün həssas xarakter daşıyan olduqca mühüm məhkəmə işlərinin işıqlandırılmasında media tərəfindən riayət edilməli olan yoxlama siyahısı qaydalarını hazırlamaq | Sözçülər | Mümkün qədər tezliklə |

| | | | |
|---|---|---|---|
| | Hakimlər və prokurorlar üçün ictimaiyyətdə yüksək maraq doğuran və media üçün həssas xarakter daşıyan işlərlə bağlı necə hərəkət etmək barədə rəhbər vəsait hazırlamaq<br><br>Medianın izlədiyi böyük maraq doğuran işlərdə hakim və prokurorların riayət etməli olduğu proseduralara dair qaydaları müəyyən etmək | Mətbuat katibləri və sözçülər Ədliyyə Nazirliyi və Baş Prokurorluqla əməkdaşlıq şəraitində | Mümkün qədər tezliklə |
| | Bütün məhkəmə və prokurorluq orqanları üçün böhran durumlarında kommunikasiya konsepsiyasını hazırlamaq və tətbiq etmək<br><br>İri məhkəmələr üçün böhran durumlarında kommunikasiyanın həyata keçirilməsi standartlarını müəyyənləşdirmək | Mətbuat katibləri böhran durumlarında institusional kommunikasiya üzrə kənar mütəxəssislərlə əməkdaşlıq şəraitində (böhran durumlarının öhdəsindən gəlmək üçün sizə peşəkar mütəxəssislər gərəkdir) | Mütəmadi surətdə təlim keçirilməsi və konsepsiyanın yenilənməsi |
| | Mətbuat xidmətlərinin və sözçülərin ən azı iş saatlarında (daha yaxşısı, 24/7 rejimində) əlçatan olması | Mətbuat katibləri və sözçülər | Mümkün qədər tezliklə |

## 3.1.1. İzahedici qeydlər

**<u>Məhkəmə orqanları ilə media arasında qarşılıqlı anlayışın artırılması üçün fəaliyyətlər</u>**

<u>Mətbuatla bağlı rəhbər prinsiplər</u>

Rəhbər prinsiplər yalnız məhkəmə sisteminə; hakim və prokurorlara, sözçü və mətbuat katiblərinə ünvanlana bilər. Orada onların vəzifə və məsuliyyətləri müəyyən edilir, jurnalistlər isə məhkəmə orqanlarından nələri gözləməli olduqlarını rəhbər prinsiplərdən öyrənə bilərlər.

Rəhbər prinsiplərə riayət edilməsinə nəzarətə görə məhkəmə rəhbərliyi məsuliyyət daşıyır. Jurnalist və ya hakimlərdən daxil olan şikayətlər məhkəmə rəhbərliyi, sözçü, mətbuat katibi və jurnalistin özünün iştirakı ilə həll edilməlidir, belə ki, şikayətin daha çox qeyri-formal şəkildə həll edilməsi daha yaxşı olar. Bunun üçün prosedur təsis edilməsi və həmin prosedurun açıq olması məsləhət görülür.

<u>Görüşlər</u>

Jurnalistlər suallarını sərbəst surətdə verə bilməlidirlər. Buna görə də, mətbuat katibinin və sözçünün onlar üçün əlçatan olması zəruridir. Mütəmadi görüşlərin keçirilməsi yaxşı qarşılıqlı anlaşmaya şərait yarada bilər. Bu görüşlərdə jurnalistlər və mətbuat katibləri/sözçülər gündəlik fəaliyyətləri, məsələn, iş şəraitini müzakirə edə və təcrübə mübadiləsi apara bilərlər. Bu toplantılar həm də mümkün problemlərin həlli üçün yaxşı yerdir.

Jurnalistlərin necə işlədiyini daha yaxşı anlamaq üçün media orqanına baş çəkmək və jurnalistlərlə onların işi barədə söhbət etmək sözçülər və mətbuat katibləri, eləcə də hakimlər və prokurorlar üçün faydalı olar.

Heç də bütün jurnalistlər məhkəmə işlərini işıqlandırmaq üçün yetərli hüquqi biliklərə malik deyillər. Jurnalistlərin hüquqi terminlər və prosedurlar barədə bilgilərini artırmaq üçün konkret mövzular üzrə mütəmadi seminarların keçirilməsi faydalıdır. Məsələn,

onları universitetlərlə, Ədliyyə Akademiyası ilə və yaxud hakim və prokurorların özləri ilə əməkdaşlıq şəraitində keçirmək olar.

İnternet saytları

Bütün məhkəmələrin və prokurorluqların internet saytının olması vacibdir. İctimaiyyətin rəsmi internet saytına baxdığını anlaya bilməsi üçün ümumiyyətlə bütün məhkəmələrin saytlarının eyni görünüşə malik olması (korporativ dizayn) məhkəmələrə etimadın maraqları naminə önəmlidir.

İnternet saytlarındakı xəbərlər yenilənməlidir. Saytlarda ən azı son xəbərlər, məhkəmələrin iş planı, qərarlar, qərarların qısa xülasəsi olmalıdır.

Press-relizlər

İctimaiyyətdə maraq doğuran və ya məhkəmə hakimiyyətinin imic və nüfuzuna zərər yetirməsi riski yüksək olan hər bir iş üzrə qərarın qısa xülasəsini özündə əks etdirən ictimaiyyət üçün press-relizlərin dərc olunması vacibdir. Press-relizlər üçün digər mövzulara misal olaraq ötən ilki mühüm işlərin/məhkəmə proseslərinin qısa xülasəsini, məhkəmə/prokurorluq orqanlarının əməkdaşları ilə bağlı statistik məlumatları, qarşıdakı il üçün siyasət prioritetlərinin təqdim edilməsini göstərmək olar.

Press-relizləri elektron poçt, sosial media və internet saytı vasitəsilə yaymaq olar. Kənar subyektlərə təqdim edilən məlumatlar məhkəmə sisteminin daxilində də əlçatan olmalıdır. Buna görə də, press-relizləri eyni vaxtda intranetdə də dərc etmək zəruridir.

Suallar və cavablar

Mühüm məhkəmə işlərinə və mövzulara dair suallar və cavablar jurnalistlərə və ictimaiyyətə düzgün informasiya verməyə kömək edir. Bunlar birbaşa ilk mənbədən əldə edilən informasiyalardır.

Suallar və cavablar elektron poçt ilə göndərilə və internet saytında, sosial mediada və intranetdə yerləşdirilə bilər.

Məhkəmənin iş planı

Jurnalistlər hər həftə məhkəmə iclaslarının cədvəli ilə tanış ola bilsələr və mümkün olan hallarda məhkəmənin iş planını elektron poçt vasitəsilə alsalar, bu onlar üçün faydalı olar.

Sözlük (izahlı lügət)

Hüquqi terminlərin aydın dildə təqdim edildiyi sözlük hazırlamaq faydalı olar. Jurnalistlər və ictimaiyyət qərarları daha yaxşı başa düşmək üçün sözlükdən istifadə edə bilərlər. Həmçinin hakimlər də sözlükdən bəhrələnə bilərlər, belə ki, bu onlara qərarlarını aydın dildə yazmaqda kömək edər.

Sözlüyün məhkəmələrin internet saytlarında yerləşdirilməsi terminlərin izahının yenilənmiş versiyasının hər kəs üçün əlçatan olmasına imkan yaradır.

Qərarların elan olunmasından sonra dərhal dərc edilməsi

İctimaiyyətdə böyük maraq doğuran qərarlar iş üzrə qərarın elan olunmasından dərhal sonra dərc edilməlidir. Bunun sayəsində mətbuat və ictimaiyyət qərarın mətnini oxuya bilərlər.

Təhsil

Universitetin jurnalistika fakültəsi ilə əməkdaşlıq imkanlarını araşdırmağın böyük faydası ola bilər. Ola bislin ki, onlar məhkəmə iclaslarının stenoqramının aparılmasını öz tədris planlarına daxil edə bilərlər.

Ədliyyə Akademiyasının və Baş Prokurorluğun kommunikasiya üzrə xüsusi proqramı yeni hakim və prokurorların media və ictimaiyyətlə əlaqələrində özlərini daha rahat hiss etmələrinə kömək edə bilər. Açıq məhkəmə iclaslarında necə davranmaq barədə xüsusi təlim keçirilməsi də məsləhət görülür.

Məhkəmə zalında və məhkəmə iclası otaqlarında mətbuat üçün iş şəraiti

Mətbuat otağında (mətbuat üçün ayrılan yerdə) rahat yazı masaları, WiFi bağlantısı, ümumi məlumatlar və məhkəmənin iş planı olmalıdır.

**Xarici (kənar) kommunikasiya barədə məlumatlılığın artırılması üçün fəaliyyətlər**

Məhkəmə sistemi daxilində məlumatlandırma kampaniyası

Məhkəmə/prokurorluq orqanının hər bir işçisi məhkəmə sisteminin rəsmi elçisidir.

Məhkəmə/prokurorluq orqanının hər bir işçisi müəyyən imicin yaradılmasına kömək edir.

Bütün hakimləri, məhkəmə aparatı işçilərini və prokurorları bu barədə daxili kampaniya vasitəsilə məlumatlandırmaq vacibdir. Bu barədə məlumatlılıq media və ictimaiyyət ilə dayanıqlı münasibətlər üçün zəruri şərtdir. Sözçülər və mətbuat katibləri məlumatlılığın artırılmasında mühüm rol oynayırlar, amma bu işdə rəhbərlik onları dəstəkləməlidir.

Bu cür kampaniyada ilk addım bütün əməkdaşların mövzu barədə məlumatlandırılmasıdır, məsələn, bunu intranet, görüşlər və tədbirlər vasitəsilə etmək olar. Növbəti addım onların bu prosesə qatılmasıdır. Buna, məsələn, seminarların, diskussiyaların vasitəsilə nail olmaq olar.

Yaxşı daxili informasiya strukturu

Mətbuat ilə peşəkar əlaqələr üçün məhkəmə/prokurorluq orqanının qaneedici daxili informasiya prosedurunu (kim kiminlə danışır və nə zaman danışır) razılaşdırması olduqca önəmlidir. Yaxşı strukturun olması hakimlərin və prokurorların özlərinin jurnalistlərlə danışması kimi hazırkı praktikanı dayandıracaq. Mediaya bütün informasiyalar mətbuat xidməti və sözçülər tərəfindən çatdırılacaq. Mətbuat xidmətinin sorğusu əsasında hakimlər və prokurorlar ictimaiyyətdə maraq doğuran məhkəmə işlərinə dair informasiyaları media ilə bölüşməklə hər bir halda əməkdaşlıq edirlər. Həmçinin bunu öz təşəbbüsləri ilə etməyə onları stimullaşdırmaq olar.

Bunu dərk etmək vacibdir ki, yaxşı daxili kommunikasiya sistemi olmadan yaxşı xarici (kənar) kommunikasiya mümkün deyil. Sizin xarici (kənar) tərəf olan mediaya söylədikləriniz məhkəmə/prokurorluq orqanının daxilində çalışan insanlara da məlum olmalıdır. Siz məlumatları ən azı eyni vaxtda öz təşkilatınız daxilində də paylaşmalısınız ki, məhkəmə aparatı işçiləri, hakimlər və prokurorlar onların təşkilatındakı xəbərləri mediadan öyrənmək məcburiyyətində qalmasınlar.

Yaxşı və yenilənən intranet daxili kommunikasiya məqsədləri üçün çox faydalı ola bilər. Mətbuat xidməti davam edən məhkəmə prosesləri barədə məlumatları, daxili xəbərləri intranetdə paylaşa bilər.

Media materiallarından çıxarışlar

Gündəlik media materiallarından çıxarışlar hakimlərin və prokurorların xarici (kənar) əlaqələrində oriyentasiyasını stimullaşdırmaq üçün faydalıdır. Bunlar hakimin/prokurorun öz icraatındakı yerli səviyyəli məhkəmə işinə aid materiallar ola bilər, amma məhkəmə sistemindəki ümummilli mövzulara dair milli səviyyəli materialların olması da məsləhət görülür.

**Mətbuatla əlaqələri peşəkar səviyyəyə qaldırmaq üçün fəaliyyətlər**

Məhkəmənin hər bir işçisinin hər gün ictimaiyyətlə əlaqədə olduğunu və məhkəmə hakimiyyətinin imicini qoruyub saxladığını dərk etməsi olduqca vacibdir. Faktiki olaraq onların hər biri məhkəmənin sözçüsüdür.

Sözçü sisteminin institusionallaşdırılması

Hakim və prokurorların rotasiyası və ya işdən çıxması səbəbindən məhkəmələr və prokurorluq orqanları yaxşı hazırlığa malik sözçüləri itirə bilərlər. Məhz buna görə də davamçıların və əvəzləyicilərin olmasını təmin edən sistemin yaradılması vacibdir.

Sözçü və mətbuat katibi vəzifələrinə qəbul etmə

Sözçünün və mətbuat katibinin vəzifə borcu mətbuatın lazımi qaydada məlumatlandırılmasını təmin etməkdir. Peşəkar sözçü və ya mətbuat katibi olmaq xüsusi bacarıqlar tələb edir. Bu elə bir işdir ki, daxili və xarici (kənar) kommunikasiya barədə bilgiləriniz olmadan onu yerinə yetirə bilməzsiniz. Bundan əlavə, bu vəzifələr xüsusi münasibət tələb edir: sözçülər və mətbuat katibləri zərurət olduqda məlumatları təqdim etməyin vacibliyini dərk etməlidirlər. Və əlbəttə, sizin stimullara, məsələn, normal iş yükünüzün azaldılmasına ehtiyacınız olacaq.

Bu vəzifələrə qəbul edilərkən bu vəzifələrə qəbul üçün tələb olunan bütün bacarıqların sadalandığı milli səviyyəli təlimatın olması çox faydalıdır. Sözçü üçün mühüm bacarıqlar bunlardır:

- ictimai nəzarətin vacibliyini və medianın rolunu dərk etmək;
- siyasi mənzərə barədə və medianın necə işlədiyi barədə bilgilərə malik olmaq;
- mürəkkəb məsələləri aydın şəkildə izah etməyi bacarmaq;
- aşkarlığın vacibliyi barədə həmkarlarının məlumatlılığının artırılmasına töhfə verməyi bacarmaq;
- çevik və stresslərə qarşı dözümlü olmaq.

Əlbəttə, mətbuat katibləri və sözçülər, milli səviyyədə mütəmadi hazırlıq keçməlidirlər ki, başqa şəhərlərdən olan həmkarları ilə təcrübələrini bölüşə bilsinlər.

Rəhbər vəsait

Həmçinin mətbuatla əlaqələr üçün rəhbər vəsaitin hazırlanması çox faydalı ola bilər. Rəhbər vəsait bütün Azərbaycan üzrə təcrübələrin paylaşılması sayəsində mətbuatla əlaqələr üçün daha vahid prosedurun hazırlanmasına gətirib çıxara bilər. Rəhbər vəsait üçün mövzular bunlardır: mətbuatla bağlı rəhbər prinsiplərə aid məsələləri necə həll etməli, təqsirsizlik prezumpsiyasının mənası, Azərbaycanın media mənzərəsi, Azərbaycan məhkəmələrində kimin nələri və harada etməsinin icmalı.

Yoxlama siyahıları

Yoxlama siyahıları üzrə işləmək mətbuat katibləri üçün həqiqətən faydalıdır. Bu siyahıda, məsələn, böyük maraq doğuran, media üçün həssas xarakter daşıyan işlərlə bağlı necə məlumat vermək qeyd edilə bilər. Yoxlama siyahısında bu məsələlər sadalanır: nələr edilməlidir, nə zaman, kim tərəfindən və necə edilməlidir. Həmçinin hakimlər və prokurorlar üçün də yoxlama siyahısı tərtib edilə bilər ki, bu da böyük maraq doğuran və media üçün həssas xarakter daşıyan işlər üzrə hərəkətlərində onlara yardımçı ola bilər.

Böhran durumlarında kommunikasiya

Məhkəmə sisteminə ictimai etimad və inamı qoruyub saxlamaq məhkəmələrin, hakimlərin və prokurorların mühüm funksiyasıdır. Bu sistemin nüfuzu xüsusən böhran durumlarında təhlükə altında olur. Bütün böhran durumlarının bir ümumi cəhəti var: onlar media ilə və maraqlı tərəflərlə operativ, qətiyyətli və peşəkar əlaqələrin olmasını tələb edir. Buna görə də, məhkəmə sistemi böhran durumuna yaxşı hazırlaşmalıdır. Belə halda hər kəs nə etməli, kimə nə zaman məlumat verməli olduğunu bilməlidir. Böhran durumlarında kommunikasiya problemlərinin müəyyənləşdirilməsi üçün mütəmadi təlimlər keçirilməlidir.

## 3.2. Məhkəmə orqanları ilə ictimaiyyət arasında münasibətlərin yaxşılaşdırılması

| Hədəflər | Fəaliyyətlər | Kim tərəfindən | Dövrilik |
|---|---|---|---|
| **Məhkəmə sisteminin işinin şəffaflığı və əyaniliyi** | Hər bir məhkəmə ictimaiyyət üçün "açıq qapı" günü təşkil edir (məsələn, "rəmzi məhkəmələr")<br><br>Mətbuat xidmətləri məhkəmələrin ictimaiyyət üçün açıq olduğunu nümayiş etdirən və ictimaiyyəti məhkəmə binasındakı otaqlarla tanış edən fəaliyyətlər təşkil edirlər | Məhkəmənin media kommunikasiya xidməti | Hər 2 ildən bir |
| | Məhkəmə prosedurlarını və qanunvericiliyi izah etmək üçün hakimlərin/prokurorların məktəblərə səfərləri | Hakim və prokurorlar | İldə bir neçə dəfə |
| | Tələbələrə məhkəmə prosesləri ilə bağlı istiqamət və izahat vermək üçün hakimlər, prokurorlar, məhkəmə aparatı işçiləri və mətbuat katiblərindən ibarət komanda yaratmaq ("rəmzi məhkəmələr") | Hakim və prokurorlar, məhkəmə aparatı işçiləri, sözçülər və mətbuat katibləri | Mümkün qədər tezliklə |

| | | |
|---|---|---|
| Məktəbliləri məhkəmələrə dəvət etmək: onların işləri izləməsi və məhkəmə proseslərinin onlara izah edilməsi<br><br>Universitet tələbələrini mətbuat xidmətlərinə dəvət etmək: onların işləri izləməsi və məhkəmə proseslərinin izah edilməsi və yaxud hətta orada təcrübə keçməsi | Hakim və prokurorlar | Mümkün qədər tezliklə |
| Hər bir məhkəmə və prokurorluq orqanı üçün Twitter hesabının yaradılması<br><br>Hər bir məhkəmə və prokurorluq orqanı tərəfindən sosial medianın istifadəsinin artırılması | Mətbuat xidmətləri | 24/7 |
| Hər bir məhkəmə və prokurorluq orqanı üçün internet saytının yaradılması və qarşıda gözlənilən məhkəmə işləri və qərarlar barədə mütəmadi yenilənən məlumat və videoların orada yerləşdirilməsi<br><br>Mətbuat xidmətinin təqdim etdiyi yenilənən məlumatları və press-relizləri internet saytında dərc etmək | Mətbuat xidmətləri | 24/7 |
| Hakim/prokurorların ictimai televiziya proqramlarında iştirak etməsi | Hakimlər, prokurorlar | Davamlı surətdə |

| | | | |
|---|---|---|---|
| | Məhkəmə sisteminin işini izah etmək üçün broşürlər, bukletlər və videolar kimi ümummilli informasiya materialları buraxmaq. | Ədliyyə Nazirliyi və Baş Prokurorluq kommunikasiya mütəxəssisləri ilə əməkdaşlıq şəraitində<br><br>Mətbuat xidmətinin mövcud olduğu məhkəmə binalarında | Hər üç ildən bir materiallara yenidən baxmaq<br><br>Tələb olunduqda |
| **Məhkəmə sisteminin anlaşılan olması** | Məhkəmə qərarlarını ictimaiyyətin anlaya biləcəyi şəkildə izah etmək bacarıqlarını artırmaq üçün təlimlər keçmək<br><br>Məhkəmə qərarlarını ictimaiyyətin daha yaxşı anlaya bilməsi məqsədilə fəaliyyətlər təşkil etmək | Peşəkar müəllimlər, hakimlər<br><br>Hakimlər və Ədliyyə Akademiyası | Hər il<br><br>Dövri surətdə |
| | Anlaşılan dildə şifahi qərarlar çıxarmaq | Hakimlər mətbuat xidmətləri ilə əməkdaşlıq şəraitində | Davamlı surətdə |
| | Məhkəmə iclaslarının (və ya onların bir hissəsinin) media tərəfindən səs yazısının aparılmasına icazə verilməsi imkanlarını araşdırmaq | Məhkəmələr, Ədliyyə Nazirliyi | Davamlı surətdə |

## 3.2.1. İzahedici qeydlər

**Məhkəmə sisteminin şəffaflığı və əyaniliyi üçün fəaliyyətlər**

“Açıq qapı” günləri/məktəblərdə görüşlər

Şəffaflığı təmin etmək məqsədilə məhkəmə sistemini ictimaiyyət üçün açıq etmək və beləliklə məhkəmə sisteminə etimad yaratmaq böyük əhəmiyyət daşıyır. Məsələn,

məktəblilərin məhkəmə işlərini izləməsi və məhkəmə proseslərinin onlara izah edilməsi üçün məhkəmələri ziyarət etmələri və ya hakim və prokurorların gənc şagirdlərdə məhkəmə sistemi barədə ilk təsəvvür yaratmaq məqsədilə təqdimatlar (pezentasiyalar) keçirmək üçün məktəblərə baş çəkməsi buna misal ola bilər. Bu, erkən mərhələdə ictimaiyyətlə təmasda olmaq və məhkəmə sisteminin müsbət imicini yaratmaq üçün fürsətdir. Bundan əlavə, bu, gənclərə gələcək karyeralarını müəyyənləşdirmək üçün istiqamət vermək imkanıdır. Seçilmiş mövzular üzrə məktəb şagirdləri ilə işləmək məhkəmə sisteminə inam yaradır və onun imicinin dayanıqlılığını təmin edə bilər.

Məhkəmələrdə "açıq qapı" günlərinin keçirilməsi və ictimaiyyətin məhkəmələri ziyarət etməsi məhkəmə sisteminin işini təşviq edir və sisteminin dəyər və prinsiplərinə inamı artırır. Buna görə də, insanlara məhkəmə prosesləri ilə bağlı istiqamət və izahat vermək üçün hakimlər, prokurorlar, məhkəmə aparatı işçiləri və mətbuat katiblərindən ibarət komanda yaratmaq zəruridir. Suallara lazımi qaydada cavab verə bilməsi üçün bu komandaya təlim keçilməlidir. Maraqlı tərəflərin məlumatına əsasən, ictimaiyyət məhkəmə binalarının geniş ictimaiyyət üçün açıq olmasından xəbərsizdir, buna görə də bu cür tədbirlər məhkəmə sisteminin açıqlığını nümayiş etdirmək üçün yaxşı fürsətdir.

İnternet saytı və sosial media

Hər kəs mühüm məhkəmə işləri barədə məlumat əldə etmək imkanına malik olmalıdır. Yüksək maraq doğuran işlərdə məhkəmə qərarları və prokurorluğun mühüm qərarları internetdə yerləşdirilməli, Twitter və ya digər sosial media vasitələrinin köməyi ilə yayılmalı və internet saytındakı press-relizin linki oraya qoyulmalıdır. İnformasiyaları rəqəmsal media kanalları vasitəsilə operativ şəkildə təqdim etmək mətbuat xidmətlərinin vəzifəsidir.

İnformasiya materialları

Məhkəmə orqanlarının işini izah edən informasiya materialları hazırlanmalı və nəinki məhkəmə binalarında, həm də digər yerlərdə, məsələn, universitetlərdə, kitabxanalarda və dövlət orqanlarında ictimaiyyətə təqdim edilməlidir. Hər kəs məhkəmə sistemi barədə daha çox məlumat əldə etmək imkanına malik olmalıdır.

**Məhkəmə sisteminin anlaşılan olması üçün fəaliyyətlər**

Aydın dil

Qərarlar dərk edilən və anlaşılan tərzdə yazılmalı və deyilməlidir ki, ictimaiyyət onları anlaya bilsin. Bu, ictimaiyyətin məhkəmə sisteminə etimad göstərməsinə nail olmaq üçün mühüm əhəmiyyət daşıyır.

Səs yazıları

Məhkəmə iclaslarının (və ya onların bir hissəsinin) media tərəfindən səs yazısının aparılmasına  icazə verilməsi ictimaiyyətin məhkəmə mövzuları ilə daha çox tanış olmasına kömək edir. Bundan başqa, bu onu göstərir ki, məhkəmə sisteminin gizlədiləsi heç nəyi yoxdur. Yəni ideal yanaşma belədir: “ədalət mühakiməsi həyata keçirilməli və bunu görmək mümkün olmalıdır”.